| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | EDU 640, Təhsildə ölçmə və qiymətləndirmə, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Magistr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim(lər)** | Əliyev Murad |
| | **E-mail:** | m.aliyev@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Onlayn (Microsoft Teams) |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılaraq |
| **Prerekvizitlər** | Təhsildə İKT təminatı və idarə olunması | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | Tələb olunan ədəbiyyat siyahısı:<br>Kumar, H., Rout, S. K., Dalabh, M., Ahmad, J., Khan, A., Chandan, J. S., Kothari, C. R., & Lokesh, K. (2016). Measurement and evaluation in education (English ed.). Directorate of Distance Education, Tripura University; Vikas Publishing House Pvt. Ltd.<br>Sivakumar, A., & Thirumoorthy, G. (2019). Measurement and evaluation in education (1st ed.). A.P.H. Publishing Corporation.<br>Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları (metodik tövsiyə). (2023). Bakı: CN Poliqrafiya.<br>Toruzem. (2021). Ölçme ve değerlendirme el kitabı (50 s.). Toros Üniversitesi. https://toruzem.toros.edu.tr/wp-content/uploads/2021/06/Olcme-ve-Degerlendirme-Klavuzu.pdf<br><br>**Qeyd 1:** Əlavə ədəbiyyat siyahısı dərs zamanı tələbələrlə paylaşılacaq. Əgər tələbələrlə paylaşılan həftəlik dərs vəsaitləri müxtəlif dillərdədirsə (məsələn, ingilis və ya türk dilində), bu vəsaitlər Azərbaycan dilinə tərcümə ediləcək. | |
| **Kursun təsviri** | "Təhsildə Ölçmə və Qiymətləndirmə" fənni təlim prosesində həm ölçmənin, həm də qiymətləndirmənin mahiyyətini və praktik tətbiq yollarını əhatə edir. Fənn çərçivəsində təhsil məqsədlərinin müəyyənləşdirilməsi, uyğun ölçmə vasitələrinin seçilməsi və hazırlanması, nəticələrin təhlili və onların əsaslandırılmış şəkildə dəyərləndirilməsi kimi məsələlər ardıcıl şəkildə öyrənilir. Test tapşırıqlarının qurulması, etibarlılıq və düzgünlük məsələləri, rubriklərin hazırlanması və inkişafyönümlü rəyin təşkili də kursun əsas | |

| | | |
|---|---|---|
| | mövzularındandır. Bu fənn tələbələrdə ölçmə ilə qiymətləndirmə arasındakı fərqi və qarşılıqlı əlaqəni aydın şəkildə anlamağa imkan yaradır. Ölçmə nəticələrin toplanması və sistemləşdirilməsi kimi, qiymətləndirmə isə həmin nəticələrin şərh olunaraq qərarverməyə əsas yaratması kimi təqdim edilir. Eyni zamanda, müasir təhsil mühitində rəqəmsal vasitələrin və süni intellekt əsaslı tətbiqlərin bu proseslərə təsiri də nəzərdən keçirilir. | |
| **Kursun məqsədləri** | Bu kursun məqsədi magistr tələbələrinə təhsildə ölçmə və qiymətləndirmənin nəzəri və praktik əsaslarını öyrətmək, onların həm pedaqoji, həm də idarəetmə səviyyəsində tətbiq bacarıqlarını inkişaf etdirməkdir. Kursun ümumi məqsədləri aşağıdakılardır:<br>• Təhsildə ölçmə və qiymətləndirmənin əsaslarını izah etmək.<br>• Qiymətləndirmənin müxtəlif növlərini (diaqnostik, formativ, summativ) anlamaq və praktikada tətbiq etmək.<br>• Ənənəvi (test, yazılı işlər və s.) və alternativ (layihə, portfel, müşahidə və s.) qiymətləndirmə formalarını müqayisə və tətbiq etmək.<br>• Təhsildə istifadə olunan ölçmə alətlərini (testlər, sorğular, müşahidə formaları, rubriklər) hazırlamaq və qiymətləndirmə prosesində istifadə etmək.<br>• Etibarlılıq, obyektivlik, ədalətlilik və şəffaflıq prinsiplərini tətbiq etmək.<br>• Təhsil prosesində konstruktiv və inkişaf yönümlü əks əlaqə vermək bacarığını formalaşdırmaq.<br>• Qiymətləndirmənin idarəetmədə və təhsil siyasətində rolunu təhlil etmək.<br>• Rəqəmsal qiymətləndirmə və süni intellekt texnologiyalarının imkanlarını və etik məhdudiyyətlərini öyrənmək. | |
| **Təlim nəticələri** | Kursun sonunda tələbələr:<br>• Təhsildə ölçmə və qiymətləndirmənin əsas prinsiplərini izah edəcəklər.<br>• Təhsil məqsədlərini taksonomiyalar əsasında təsnif edəcəklər.<br>• Müxtəlif qiymətləndirmə formalarını və test növlərini müqayisə edəcəklər.<br>• Öyrənmə nəticələrini ölçmək üçün tapşırıqlar və qiymətləndirmə vasitələri hazırlayacaqlar.<br>• Testlərin etibarlılığını və düzgünlüyünü qiymətləndirəcəklər.<br>• Qiymətləndirmədə obyektivlik və şəffaflıq prinsiplərini tətbiq edə biləcəklər. | |
| **Tədris metodları** | Məşğələ | **x** |
| | Müzakirələr | **x** |
| | Praktiki tapşırıqlar | **x** |

<table>
<tr><td></td><td colspan="2">Qruplarla iş</td><td>x</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Fərdi tapşırıqlar</td><td></td><td>15</td></tr>
<tr><td>Qruplarla iş</td><td></td><td>10</td></tr>
<tr><td>Aktivlik</td><td></td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar<br>(Tədris siyasəti və davranış)</td><td colspan="3">1. Dərsdə aktiv iştirak (10%)<br>Tələbələr dərs zamanı suallar verərək, diskussiyalarda iştirak edərək və qrup fəaliyyətlərinə qoşularaq mövzunu mənimsəmə səviyyələrini nümayiş etdirirlər. Bu qiymətləndirmə tələbənin dərsə hazırlıq, motivasiya və öyrənmə prosesinə fəal qoşulma səviyyəsini əks etdirir.<br>2. Fərdi tapşırıqlar (15%)<br>Fərdi tapşırıqların verilməsində məqsəd tələbələrin ölçmə və qiymətləndirmə üzrə fərqli bacarıqlarını inkişaf etdirməkdir. Testlərin tənqidi təhlili onlara mövcud qiymətləndirmə alətlərinin keyfiyyətini analiz etməyi və təkmilləşdirmə yollarını müəyyənləşdirməyi öyrədir. Rubrik dizaynı obyektiv və sistemli qiymətləndirmə meyarları qurmaq, müxtəlif fəaliyyətlər üçün şəffaf ölçmə alətləri hazırlamaq bacarığı formalaşdırır. Portfolio qiymətləndirməsi isə tələbələrə öz öyrənmə prosesini dəyərləndirmək, inkişafını izləmək və refleksiya aparmaq imkanı verir. Beləliklə, bu tapşırıqlar tələbələrin həm analitik və tənqidi düşünmə, həm də özünüqiymətləndirmə və qiymətləndirmə alətləri hazırlama bacarıqlarını inkişaf etdirməyə xidmət edir.<br><u>Qeyd 2:</u> Teams platformasında mövzu sətri üçün tövsiyə:<br>Teams platformasda tapşırıqları göndərərkən mövzu sətrinə tapşırığın adını və öz adınızı yazın. Məsələn:<br>“Rubrik dizaynı – Ad Soyad”<br><u>a. Dərsliklərdə verilmiş testlərin tənqidi təhlili</u><br>Məqsəd: Testləri analiz etmək və təkmilləşdirmək bacarığını inkişaf etdirmək.<br>Tapşırıq: Müəllim tərəfindən təqdim olunan və ya dərslikdən seçilmiş 10–15 sualdan ibarət bir test toplusunu götürərək onun məqsədini, sualların Blum taksonomiyasına görə paylanmasını, düzgünlük və çətinlik səviyyəsini təhlil edin və testin ümumi keyfiyyətini artırmaq üçün dəyişiklik təklifləri hazırlayın.<br>Addımlar:<br>1. Testin məqsədini və hədəf bacarıqları müəyyən edin.<br>2. Sualların Blum taksonomiyasına uyğunluğunu yoxlayın.<br>3. Test elementlərinin düzgünlük və çətinlik səviyyəsini qiymətləndirin.</td></tr>
</table>

4. Təklif olunan dəyişiklikləri yazın.

Qiymətləndirmə meyarları: Analiz dəqiqliyi, taksonomiya uyğunluğu, təkliflərin keyfiyyəti.

**b. Rubrik dizaynı**

Məqsəd: Qiymətləndirmə alətlərini obyektiv və sistemli şəkildə hazırlamaq bacarığını inkişaf etdirmək.

Tapşırıq: Şifahi təqdimat, esse və ya layihələr üçün analitik rubrik hazırlayın.

Addımlar:

1. Qiymətləndirəcəyiniz fəaliyyət növünü seçin.
2. Əsas meyarları müəyyən edin (məzmun, struktur, üslub, təqdimat bacarığı).
3. Hər meyar üçün 1–5 ballıq şkala təyin edin.
4. Hər bal səviyyəsinin nəyi ifadə etdiyini açıqlayın.

Qiymətləndirmə meyarları: Meyarların uyğunluğu, əsaslandırılması, praktik tətbiq imkanı.

**c. Portfolio qiymətləndirməsi**

Məqsəd: Öz bilik və bacarıqlarınızı sistemli şəkildə toplamaq, refleksiya etmək və özünü qiymətləndirmə bacarıqlarını inkişaf etdirmək.

Tapşırıq: Mini-portfolio hazırlayın. Portfolio aşağıdakılardan ibarət olmalıdır: esse/refleksiya, kiçik test nəticələri, praktik iş nümunələri.

Addımlar:

1. Mövzu seçin – dərsdə öyrəndiyiniz bir konsept və ya bacarıq.
2. Qısa yazılı refleksiya hazırlayın: öyrənmə prosesi, inkişaf etdirdiyiniz bacarıqlar, qarşılaşdığınız çətinliklər.
3. Praktiki iş nümunələrini əlavə edin.
4. Rubrik vasitəsilə özünüzü qiymətləndirin.

Qiymətləndirmə meyarları: Mövzunun əhatəliliyi, düzgünlük, analitik düşüncə, refleksiya keyfiyyəti.

Hər bir fərdi tapşırıq üçün qiymətləndirmə meyarları (5%)

Qiymətləndirmə aşağıdakı meyarlar əsasında aparılacaq:

- Mövzunun düzgün və dərin başa düşülməsi – 1%
- Müvafiq nəzəri prinsiplərin tətbiqi – 1%
- Analitik yanaşma və tənqidi düşünmə səviyyəsi – 1%
- Təkliflərin praktik əhəmiyyəti və əsaslandırılması – 1%
- İşin aydınlığı, strukturu və akademik yazı keyfiyyəti – 1%

**3. Qruplarla iş (10%)**

Bu dərsdə verilmiş qrup işlərinin mahiyyəti ondan ibarətdir ki, bu tapşırıqlarla tələbələr həm qiymətləndirmə vasitələrinin hazırlanması və təhlili, həm də məlumat toplama və təqdim etmə bacarıqlarını inkişaf etdirsinlər. Test hazırlamaqla tələbələr sualların düzgün tərtibi, çətinlik dərəcəsinin qiymətləndirilməsi və ümumi keyfiyyət analizi ilə bağlı

| | |
|---|---|
| | təcrübə qazanacaq. Sorğu hazırlama layihəsi isə mövzunu müəyyənləşdirərək sorğuların hazırlanması, məlumat toplama, nəticələri statistik cəhətdən təhlil etmə və onları təqdimetmə bacarığını gücləndirəcək. Bu fəaliyyətlər tələbələrin həm nəzəri biliklərini praktikada tətbiq etməsinə, həm də əməkdaşlıq və analitik düşünmə vərdişlərinin formalaşmasına xidmət edir.<br>**<u>Qeyd 3:</u>** Teams platformasında mövzu sətri üçün tövsiyə:<br>Teams platformasında mövzunu göndərərkən mövzu sətrinə tapşırığın adını və qrupunu adını yazın. Məsələn:<br>***<u>"Sorğu araşdırması layihəsi– Qrup A"</u>***<br><br>**a. Sorğu üçün ölçmə aləti hazırlamaq və nəticələrin təhlili**<br>**Məqsəd:** Məlumat toplama, analiz və təqdim etmə bacarıqlarını inkişaf etdirmək.<br>**Tapşırıq:** Qrup olaraq auditoriyada iştirak edən tələbələr üçün təhsil, motivasiya və ya öyrənmə vərdişləri ilə bağlı sorğu hazırlayın və həyata keçirin.<br>**Addımlar:**<br>1. Sorğunun məqsədini müəyyən edin.<br>2. Sualları hazırlayın (qapalı, açıq və ya qarışıq).<br>3. Sorğunu həyata keçirin.<br>4. Nəticələri təsviri statistikalarla təhlil edin.<br>5. Sorğunun güclü və zəif tərəflərini müzakirə edin.<br>**Rubrik** - Sorğu alətinin hazırlanması və məlumatların təhlili (10%)<br>Qiymətləndirmə aşağıdakı meyarlar əsasında aparılacaq:<br>• Sorğunun məqsədinin və tədqiqat fokusunun aydınlığı – 2%<br>• Sorğu suallarının keyfiyyəti və strukturunun məntiqiliyi – 2%<br>• Məlumatların toplanması və əsas statistik təhlilin düzgünlüyü – 2%<br>• Nəticələrin şərhi və tənqidi müzakirə bacarığı – 2%<br>• İşin təşkili, komanda əməkdaşlığı və təqdimatın aydınlığı – 2%<br>**<u>Qeyd 4:</u>**<br>Bütün tapşırıqlar göstərilən vaxt çərçivəsində təqdim olunmalıdır. Gec təqdim olunan işlər qəbul edilməyəcək. Tapşırıq son tarixdən gec təqdim edilərsə, hər keçən gün üçün 1 bal çıxılacaq. Bir həftədən artıq gecikmiş işlər isə qiymətləndirilməyəcək.<br>**4. Aralıq imtahanı (30%)**<br>Aralıq imtahanı kursun ilk hissəsində öyrənilən bilik və bacarıqları yoxlayır. Bu imtahan tələbələrə mövzuların başa düşülməsi və tətbiqi barədə ətraflı rəy verir. Eyni zamanda, tələbələrə dərs prosesində öz bilik səviyyələrini qiymətləndirmək və zəif tərəflərini müəyyən etmək imkanı yaradır.<br>**5. Final imtahanı (35%)** |

| | |
|---|---|
| | Final imtahanı kurs müddətində əldə edilən bütün bilik və bacarıqları yekun olaraq qiymətləndirir. Bu imtahan tələbələrin dərs mövzularını əhatəli və sistemli şəkildə mənimsəyib-mənimsəmədiklərini göstərir. Final imtahanı həm nəzəri, həm də praktik biliklərin səmərəli tətbiqini ölçərək tələbələrin ümumi uğur səviyyəsini müəyyən edir.<br>**Ümumi dərs siyasəti:**<br>**a. Akademik dürüstlük**<br>Praktik tapşırıqlar tələbənin öz bilik və bacarıqlarına əsaslanmalıdır. Başqasının işindən istifadə etmək - plagiat yol verilməzdir. Həmçinin, süni intellekt alətlərindən (məsələn, ChatGPT, Google Gemini və s.) mövzunu araşdırmaq və ideya toplamaq üçün yararlana bilərsiniz. Lakin istifadənin gizlədilməsi və ya həddindən artıq etibar edilməsi qiymətinizin aşağı düşməsinə səbəb ola bilər. Ona görə də süni intellekt alətindən istifadə etdiyiniz təqdirdə işinizə hansı şəkildə dəstək verdiyini açıq şəkildə göstərməyiniz vacibdir.<br>**b. Peşəkar davranış**<br>Dərs müddətində qrup üzvləri ilə hörmətlə və konstruktiv şəkildə ünsiyyət qurmanız, tapşırıqları vaxtında yerinə yetirməniz və qrup işləri ilə müzakirələrdə fəal iştirak etməniz tövsiyə olunur. Bütün fəaliyyətlərdə peşəkar yanaşma nümayiş etdirmək öyrənmə təcrübənizin keyfiyyətini artıracaq və gələcək peşə fəaliyyətinizdə sizə faydalı olacaq. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 16.02.2026 | Fənnin təqdimatı - Fənnin quruluşu, məqsədləri, qiymətləndirmə.<br>Təhsildə ölçmə və qiymətləndirməyə giriş: Əsas anlayışlar | Sillabus.<br>Sivakumar, A., & Thirumoorthy, G. Measurement and evaluation in education (1st ed.). A.P.H. Publishing Corporation. (2019). Pages: 1-20<br>Kumar et al. (2016). Measurement and evaluation in education (English ed.). Directorate of Distance Education, Tripura University; Vikas Publishing House Pvt. Ltd. Pages: 1-13 |
| 2. | 23.02.2026 | Qiymətləndirmənin növləri, funksiyaları və məqsədləri. | Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları (metodik tövsiyə). Bakı: CN poligrafiya, 2023<br>Sivakumar, A., & |

| | | | |
|---|---|---|---|
| | | | Thirumoorthy, G. Measurement and evaluation in education (1st ed.). A.P.H. Publishing Corporation. (2019). Səh: 21-29<br>Kumar et al. (2016). Measurement and evaluation in education (English ed.). Directorate of Distance Education, Tripura University; Vikas Publishing House Pvt. Ltd. Səh: 14-19 |
| 3. | 02.03.2026 | Ölçmənin psixometrik prinsipləri: etibarlılıq, validlik, obyektivlik | Sivakumar, A., & Thirumoorthy, G. (2019). Measurement and evaluation in education (1st ed.). A.P.H. Publishing Corporation. Səh. 72-81.<br>Kumar et al. (2016). Measurement and evaluation in education (English ed.). Directorate of Distance Education, Tripura University; Vikas Publishing House Pvt. Ltd. Səh. 211-248. |
| 4. | 09.03.2026 | Tədris məqsədlərinin müəyyənləşdirilməsi və qiymətləndirmə planı: Öyrənmə hədəflərinin (objectives) tərtibi, qiymətləndirmə planının hazırlanması. | Kumar et al. (2016). Measurement and evaluation in education (English ed.). Directorate of Distance Education, Tripura University; Vikas Publishing House Pvt. Ltd. Səh. 19-40<br><br>**Fərdi tapşırıq a: Dərsliklərdə verilmiş testlərin tənqidi təhlili.**<br>Müəllim tərəfindən təqdim olunan və ya tələbə özü müəyyən etdiyi fənn dərsliyindən seçilmiş 10-15 sualdan ibarət bir test toplusunu götürərək onun |

| | | | |
|---|---|---|---|
| | | | məqsədini, sualların Blum taksonomiyasına görə paylanmasını, düzgünlük və çətinlik səviyyəsini təhlil edin və testin ümumi keyfiyyətini artırmaq üçün dəyişiklik təklifləri hazırlayın. |
| 5. | 16.03.2026 | Test tapşırıqlarının hazırlanması: obyektiv suallar (çoxseçimli, uyğunluğun müəyyən edilməsi, doğru-yanlış) | Sivakumar, A., & Thirumoorthy, G. (2019). Measurement and evaluation in education (1st ed.). A.P.H. Publishing Corporation.<br>Səh. 29-35.<br><br>**Praktik tapşırıq: Test hazırlamaq**<br>**Tapşırıq:** Qrup olaraq 10 sualdan ibarət qısa test tərtib edin. |
| 6. | 23.03.2026 | Subyektiv test sualları və rubrikaların hazırlanması; tələbələrə səmərəli əks əlaqə vermək üsulları | Toruzem. (2021). Ölçme ve değerlendirme  el kitabı. Toros Üniversitesi. Səh. 24-29, 39-42<br>https://toruzem.toros.edu.tr/wp-content/uploads/2021/06/Olcme-ve-Degerlendirme-Klavuzu.pdf<br><br>Müəllim tərəfindən hazırlanmış material. |
| 7. | 30.03.2026 | Yazılı işlərin və layihələrin qiymətləndirilməsi | Toruzem. (2021). Ölçme ve değerlendirme<br>el kitabı. Toros Üniversitesi.<br>Səh. 29-31, 36-38<br><br>Fərdi tapşırıq b:<br>Rubriklərin dizayn edilməsi<br><br>Şifahi təqdimat, esse və ya layihələr üçün analitik rubrika hazırlayın. |
| **Aralıq imtahanı** | | | |

| | | | |
|---|---|---|---|
| 8. | 06.04.2026 | Alternativ qiymətləndirmə üsulları: portfeli, özünü və həmyaşıd qiymətləndirməsi | Toruzem. (2021). Ölçme ve değerlendirme el kitabı. Toros Üniversitesi. Səh. 34-35, 42-46<br>**Fərdi tapşırıq c. Portfolio qiymətləndirməsi (14-cü həftəyə qədər)**<br><br>**Tapşırıq:** Mini-portfolio hazırlayın. Portfolio aşağıdakılardan ibarət olmalıdır: esse/refleksiya, test təhlilləri, praktik iş nümunələri və s. |
| 9. | 13.04.2026 | Rəqəmsal texnologiyalar və qiymətləndirmə. Süni intellekt dövründə rəqəmsal qiymətləndirmə və əks əlaqə. | Brookhart, S. M., & McMillan, J. H. (Eds.). (2020). Classroom assessment and educational measurement. Routledge. https://doi.org/10.4324/9780429507533<br>Səh. 224-241<br><br>**Tapşırıq:** Müəllim tərəfindən süni intellekt alətlərində işləmək üçün hazırlanmış praktiki çalışmalar. |
| 10. | 20.04.2026 | Ölçmə alətlərinin hazırlanması | Sivakumar, A., & Thirumoorthy, G. (2019). Measurement and evaluation in education (1st ed.). A.P.H. Publishing Corporation.<br>Səh. 106-117.<br>**Tapşırıq:** Qrup halında auditoriyada iştirak edən tələbələr üçün təhsil, motivasiya və ya öyrənmə vərdişləri ilə bağlı sorğu hazırlayın və həyata keçirin. |
| 11. | 27.04.2026 | Qiymətləndirmə nəticələrinin statistik təhlili – nəzəri əsaslar | Sivakumar, A., & Thirumoorthy, G. (2019). |

| | | | |
|---|---|---|---|
| | | | Measurement and evaluation in education (1st ed.). A.P.H. Publishing Corporation.<br>Səh. 118-159<br><br>**Qruplarla iş:**<br>Əvvəlcədən müəyyən edilən mövzularda ölçmə aləti hazırlayın və nəticələri təhlil edin. |
| 12. | 04.05.2026 | Statistik analiz proqram təminatında praktiki işləmə<br><br>**Alt mövzular:**<br>• Dataset yaradılması<br>• Dəyişənlərin kodlaşdırılması<br>• Məlumatların daxil edilməsi və təmizlənməsi<br>• Təsviri statistikanın hesablanması<br>• Etibarlılıq analizinin aparılması<br>• Sadə testlərin tətbiqi və nəticələrin şərhi | **Praktik tapşırıq:**<br>• Toplanılan məlumatları (datanı) proqram mühitində analiz edin.<br>• Nəticələri qrafikləşdirin.<br>• Qısa statistik hesabat hazırlayın. |
| 13. | 11.05.2026 | Qiymətləndirmə etikası və inklüzivlik | Mehrens, W.A., & Lehmann, I.J. (1973). Measurement and evaluation in education and psychology. Səh. 398-426, 435-452 |
| 14. | 18.05.2026 | Qrup işlərinin təqdimatı. | |
| 15. | 25.05.2026 | Ümumiləşdirmə | |
| **Final imtahanı** | | | |